# Zəkulla BAYRAMLI-60



Hörmətli Zəki müəllim!

Sizi - tanınmış elm adamı, şairi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1965-ci ildə Ağcabədi rayonunun Qaravəlli kəndində doğulmuş, 1972-82-ci illərdə həmin kənd orta məktəbində təhsil almısınız. 1983-cü ildə Gəncə Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, 1990-cı ildə həmin institutu Azərbaycan dili və ədəbiyyatı müəllimi ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmisiniz. 1984-86-cı illərdə iki illik hərbi xidmətdə olmusunuz. 1990-93-cü illərdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əyani aspirantı olmuş, 1994-cü ildə "Füzuli yaradıcılığı və müasir ədəbi-nəzəri fikir" mövzusunda namizədlik dissertasiyası müdafiə etmisiniz. Elə həmin ildən institutun Ədəbiyyat nəzəriyyəsi şöbəsində kiçik elmi işçi kimi fəaliyyətə başlamış, sonra Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində fəaliiyət göstərmisiniz. Hazırda Füzulişünaslıq sektorunda aparıcı elmi işçi vəzifəsində çalışırsınız.

"Klassik Azərbaycan nəsrinin Füzuli mərhələsi" mövzusu üzərində araşdırmalarını davam etdirirsiniz. Məşğul olduğunuz əsas təqdiqat sahələri - Füzulinin dövrü, mühiti, həyatı; Füzulinin şeir ve nəsr yaradıcılığı; Füzulinin özündən öncəki türk şairlərindən təsirlənmə səviyyəsi, Füzulinin özündən sonrakı türk şairlərinə təsiri və s.-dir.

Sizin 50-dən çox elmi məqaləniz Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan və b. ölkələrdə nəşr edilib.

Siz, həmçinin AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı yeni 10 cildlik Azərbaycan ədəbiyyatı tarixində (III-IV cildlər) "XVI əsrdə Azərbaycanda tarixi-siyasi vəziyyət və ədəbi-mədəni mühit" (həmmüəllifli), İ.Həsənoğlu, Hamidi, Bəsiri, Süruri, Yusif bəy Ustaclu, Ruhi Bağdadi, Əhdi Bağdadi, Molla Vəli Vidadi və M.Füzuli (həmmüəllifli) bölmələrini yazmısınız.

2025-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda nəşr olunmuş 1200 səhifəlik "Məhəmməd Füzuli" monoqrafiyasında Füzulinin dövrü və ədəbi mühiti, şairin həyatı, divanlarının dibaçələri, qəzəlləri, "Bəngü Badə" və "Leyli və Məcnun" poemaları, məktubları və "Şikayətnamə" əsəri, "Rindü Zahid" və "Səhhət və Mərəz" nəsr əsərləri, Füzuli və Nəvayi və b. bölmələri də sizin qələminizin məhsuludur.

Siz pedaqoji fəaliyyətlə də məşğul olmusunuz. Keçmiş AMİ (Azərbaycan Müəllimlər İnstitutu) və Xəzər Universitetində klassik Azərbaycan ədəbiyyatından mühazirələr oxumuş, seminar aparmısınız.

Siz elm adamı olmaqla yanaşı, həm də şairsiniz, şeirlərinizdə Zəki Bayram Yurdçu imzasıyla çıxış edirsiniz. İndiyədək 2 elmi monoqrafiyanız və 4 şeir kitabınız yayınlanıb.

Hörmətli Zəkulla müəllim!

Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**